# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

№ 032 (7442)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

24 aprel 2026-cı il.
Qiyməti 1 manat

## Azərbaycan dövlətçiliyinin və milli ideologiyasının banisi



3

## Azərbaycan – Latviya: əməkdaşlıq üçün YENİ MƏRHƏLƏ



2

*Prezident İLHAM ƏLİYEV: "Latviya Prezidentinin bu səfəri ikitərəfli imkanlar üçün yaxşı fürsətlər yaradacaq"*

# Atəşkəs uzadılır - Yaxın Şərqə sülh gələcəkmi?



7

## YAP İdarə Heyətinin iclası keçirilib



4

## Dünən dünyada kitab oxunurdu: bəs bu gün?



6

## Oxumayın!



5

## Uşaqlar qatilə çevrilir - KİM GÜNAHKARDIR: valideyn, yoxsa internet?



6

## WhatsApp yazışmalarını hansı hallarda izləmək olar? – ŞOK FAKTLAR



8






# Azərbaycan – Latviya: əməkdaşlıq üçün YENİ MƏRHƏLƏ

***“Ölkələrimiz arasında münasibətlər çox möhkəm çərçivəyə əsaslanır. Eyni zamanda, düşünürəm ki, onun mühüm hissəsini cənab Prezidentlə olan şəxsi münasibətlərimiz təşkil edir. Biz bir-birimizi uzun illərdir ki, tanıyırıq və fikrimcə, bəlkə də 20 ilə yaxındır. Şəxsən mən çox şadam ki, əziz dostumuzu və onun nümayəndə heyətini Bakıda qəbul edirəm”.***

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 22-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçslə mətbuata bəyanatında bildirib. Məlmdur ki, Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra ölkəmiz ilə dünyanın əksər dövlətləri arasında ikitərəfli münasibətlər formalaşmağa başladı. Qarşılıqlı etimada və inama əsaslanan əlaqələr bu gün həm siyasi, həm də iqtisadi formatda uğurla davam edir. Bu münasibətlər Baltikyanı ölkələr ilə də etimad müstəvisində inkişaf etdirilir və dövlət başçılarının qarşılıqlı səfərləri ilə möhkəmlənir. Hər iki respublika SSRİ-nin tərkibində müttəfiq respublika olmuşlar. Elə həmin dövrdə də iki respublika arasında iqtisadi və mədəni əlaqələr formalaşmışdır. SSRİ dağıldıqdan, postsovet məkanında müstəqil dövlətlər yarandıqdan sonra bu münasibətlər daha da inkişaf etməyə başlamışdır. İki ölkə arasında diplomatik əlaqələr 1994-cü ilin yanvar ayının 11-də qurulmuşdur.

### “LATVİYA PREZİDENTİNİN BU SƏFƏRİ İKİTƏRƏFLİ İMKANLAR ÜÇÜN YAXŞI FÜRSƏTLƏR YARADACAQ”

2005-ci ildə Azərbaycanın Latviyada səfirliyi, bundan bir il sonra isə Latviyanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. Ötən müddət ərzində ölkələrimiz arasında qarşılıqlı etimada, anlaşmaya, hörmətə əsaslanan münasibətlər qurulub. Dövlət və hökumət başçıları, parlament sədrləri və hökumət üzvləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər həyata keçirilib. Prezident İlham Əliyevin 2017-ci ildə Latviyaya rəsmi səfəri zamanı imzalanmış “Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə” əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. İki ölkə arasında yüksək səviyyədə əlaqələr mövcuddur. Azərbaycan Latviya ilə əməkdaşlığa həm də regional təşkilatlar, o cümlədən Baltik-Qara Dəniz-Xəzər hövzəsi regionunda inteqrasiya proseslərinin intensivləşdirilməsi üçün Baltik Dənizi Dövlətlərinin Şurası çərçivəsində xüsusi əhəmiyyət verir. Latviya Azərbaycanı Avropanın enerji resursları ilə təchizatında Qara dəniz-Xəzər regionunun əsas ölkəsi hesab edir. “Əminəm ki, Latviya Prezidentinin bu səfəri ikitərəfli imkanlar üçün yaxşı fürsətlər yaradacaq”, - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib.



*Prezident İLHAM ƏLİYEV: “Latviya Prezidentinin bu səfəri ikitərəfli imkanlar üçün yaxşı fürsətlər yaradacaq”*



Dövlətimizin başçısı latviyalı həmkarı ilə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə ikitərəfli gündəliyin müxtəlif aspektlərini müzakirə etdiklərini, eyni zamanda, beynəlxalq məsələləri nəzərdən keçirdiklərini vurğulayıb. Dövlət başçısı bildirib ki, indi biz ixracatımızın şaxələndirilməsi üzərində fəal işləyirik, baxmayaraq ki, bunu etmək çətin olacaq: “Çünki Azərbaycanda təbii qaz hasilatı artır və artacaq”. Azərbaycanın hasil etdiyi qazın böyük hissəsinin ixrac olunduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib ki, qeyri-neft-qaz sektoruna aid sənayenin və iqtisadiyyatın artan hasilat profili beynəlxalq bazarlarda, ilk növbədə, Avropa bazarlarında artan tələbatla uzlaşmalıdır: “Biz Azərbaycanda ölkəni tamamilə neft və qazdan asılı olan bir dövlətdən öz iqtisadiyyatının şaxələndirilməsi prosesi ilə fəxr edə biləcək bir ölkəyə çevirmək üçün çox işlər gördük”.

### “BİZ ƏN BÖYÜK HASİLATÇI VƏ İXRACATÇI DEYİLİK, BİZDƏN DAHA BÖYÜK OYUNÇULAR VAR”

“Ümumi daxili məhsulun strukturuna nəzər salsaq, son dörd-beş il ərzində sürətli artımın şahidi olarıq. ÜDM-də qeyri-neft sənayesinin payı 50 faizdən artaraq 70 faizi keçib və bu proses davam edir. Bu isə o deməkdir ki, iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Artıq bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan təbii qaz alır. Ölkələrin ümumi sayı 16-dır və bu göstərici üzrə Azərbaycan dünyada birinci yerdədir: “Biz ən böyük hasilatçı və ixracatçı deyilik, bizdən daha böyük oyunçular var. Lakin boru kəmərləri vasitəsilə qaz ixrac edən ölkələr arasında təchizat coğrafiyasına görə biz birinciyik”, - deyə Azərbaycan Prezidenti əlavə edib.

Prezident İlham Əliyev çıxışında ikitərəfli gündəliyin müxtəlif istiqamətlərinə toxunaraq, beynəlxalq əhəmiyyətli məsələlərin həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş müzakirə edildiyini vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyev Latviya Prezidenti Edqars Rinkeviçsə Azərbaycanla Ermənistan arasında sülh prosesi haqqında məlumat verib.

Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında artıq de-fakto sülhün olduğunu, hər iki ölkənin liderinin ötən il Ağ Evə dəvət edildiyini, Birgə Bəyannamənin imzalandığını, xarici işlər nazirləri tərəfindən sənədin paraflandığını diqqətə çatdırıb.

“O vaxtdan (Ağ Evdə Birgə Bəyannamənin imzalanması - red.) bəri bir çox irəliləyiş olub. Ticarət edilir, xüsusilə də Azərbaycandan Ermənistana yanacaq məhsulları ixrac olunmağa başlayıb”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 22-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçslə mətbuata bəyanatında səsləndirib.

Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyətinin, media nümayəndələrinin qarşılıqlı səfərlərinin və görüşlərinin olduğunu diqqətə çatdıran dövlətimizin başçısı bunun normal mühitin bərqərar edilməsinə töhfə verdiyini vurğulayıb.

Prezident İlham Əliyev çıxışında ikitərəfli gündəliyin müxtəlif istiqamətlərinə toxunaraq, beynəlxalq əhəmiyyətli məsələlərin həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş müzakirə edildiyini vurğulayıb . Bu gün əməkdaşlıq üçün geniş potensial var və doqquz il əvvəl imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə münasibətlərin hüquqi əsasını formalaşdırıb.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan dövlətçiliyinin və milli ideologiyasının banisi



*Azərbaycanın Memarı, Qurucusu və Xilaskarı Ulu Öndər Heydər Əliyev hər zaman azərbaycanlı olması ilə fəxr edirdi və daim xalqının mənafeyini düşünürdü. Dahi rəhbərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri xalqın dilində müdrik bir kəlama, hər bir azərbaycanlının iftixarla səsləndirdiyi şüara çevrilmişdir.*

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın müasir tarixinin son 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Ümummilli liderin xüsusi imzası var. Zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə tükənməz sevgisi ilə Heydər Əliyev düşünülmüş və məqsədyönlü siyasəti ilə dövləti, xalqımızı tarixin ağır və sərt sınaqlarından uğurla çıxararaq, gələcək inkişafın təməlini qoydu. Azərbaycanı parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradaraq, ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğurlu səhifələr həkk etdi. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Heydər Əliyev ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

## “AZƏRBAYCAN DÖVLƏTİ DEMOKRATİK BİR CƏMİYYƏT YARADIBDIR”

Ulu Öndər Heydər Əliyev çıxışlarının birində belə deyirdi: ”Azərbaycan dövləti demokratik bir cəmiyyət yaradıbdır. Bu demokratik cəmiyyətdə demokratiyanın tələb etdiyi bütün amillər mövcuddur: söz azadlığı, mətbuat azadlığı, insanın bütün azadlıqları, vicdan azadlığı, ayrı-ayrı siyasi təşkilatlar yaratmaq, partiyalar yaratmaq, tamamilə sərbəstlik - yəni demokratiyanın tələblərinə uyğun olan bütün amillər Azərbaycanda bu gün mövcuddur. Bəlkə də ölkəmizi bizimlə bərabər müstəqillik əldə etmiş başqa ölkələrlə müqayisədə, yəni Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə müqayisə edəndə burada bu azadlıqlar daha da çox yer alıbdır. Əgər elə olmasaydı Azərbaycanda bu qədər siyasi partiya olmazdı, Azərbaycanda mətbuat bu qədər azad olmazdı, qəzetlər bu sayda olmazdı və qəzetlərə, mətbuata bu qədər azadlıq verilməzdi. Bunlar hamısı demokratiyanın Azərbaycanda mövcud olmasıdır”.

Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sisteminin formalaşmasına nail olunub. Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın qazandığı böyük uğurlar, məhz Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsidir. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib. Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünki uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb.

## AZƏRBAYCAN SOVET İTTİFAQINDA APARICI YERLƏRDƏN BİRİNİ TUTDU

Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilib. Dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlandı və dərhal onların icrasına başlanıldı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli yorulmadan çalışırdı. Qısa bir zaman məsafəsində bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

## AZƏRBAYCANIN MÜSTƏQİL HƏYATININ YENİ SƏHİFƏLƏRİ

1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Şəhər və kəndlərimiz bir-birinin ardınca işğal edilirdi. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimai-siyasi həyatında anarxiya, xaos hökm sürürdü. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

15 iyun 1993-cü il tarixində baş verən hadisə - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Ulu Öndər Heydər Əliyev respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı.

## DÜNYA BAZARINDA İQTİSADİ MÜTTƏFİQ

1994-cü ildə ”Əsrin Müqaviləsi”nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Əlbəttə, ”Əsrin Müqaviləsi”nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi. Azərbaycanın ”Əsrin Müqaviləsi”ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: ”1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir”.

”Əsrin Müqaviləsi”nin tərəfdaşı olan ölkələrin, demək olar ki, hər biri dünyada böyük nüfuza və gücə malik ölkə idi. Həmin dövr üçün bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilmələri təhlükəsizliyimizin təminatına səbəb olan amillərdəndir.

## HÜQUQİ DÖVLƏTİN AZƏRBAYCAN MODELİ

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk Milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Yeni Konstitusiyanın layihəsinin hazırlanması kimi çox ciddi və məsuliyyətli vəzifəni bilavasitə öz üzərinə götürən dahi öndərimiz bununla bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etdi.

Azərbaycan Respublikasının ilk Ana Qanununu - Milli Konstitusiyasını yaratdı. Bu sənəd dünyada nadir konstitusiyalardandır ki, burada demokratik-hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunmuş, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilmişdir.

Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu. Qeyd edək ki, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirilib. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev qeyd edib ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması olduqca mühüm bir tarixi hadisədir: ”Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik”. Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur. Ümummilli Lider Heydər Əliyev deyirdi: ”Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır”.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyini inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaradıb. Respublikamız, eyni zamanda, bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi güc mərkəzi modelini yaradıb. Azərbaycan qarşıdakı onilliklərin inkişaf istiqamətlərini müəyyənləşdirib. Qarşıdakı dövrün layihələri ümidverici və irəliyə baxmaq üçün stimulvericidir.

**Nəzakət ƏLƏDDİNQIZI**




# YAP İdarə Heyətinin iclası keçirilib



***Aprelin 22-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. İclasda Azərbaycan Respublikası Seçki Məcəlləsinin 24-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının (MSK) üzvü seçilmək üçün Yeni Azərbaycan Partiyasının namizədlərinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi məsələsinə baxılıb.***

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov YAP-ı MSK-da təmsil edəcək namizədləri İdarə Heyətinin müzakirəsinə təqdim edib. Pənahov Məzahir Məhəmməd oğlu, Qasımov Rövzət Afət oğlu, İbrahimov Ramiz Hilal oğlu, Paşayev Hüseyn Məmməd oğlu, Məmmədov Elmar Eldar oğlu və Abdullayeva Sevinc Qurban qızının Mərkəzi Seçki Komissiyasının əsas, Mustafayeva Elnarə Eyyub qızının isə əvəzedici üzvü seçilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verilməsi barədə qərar qəbul edilib.

İclasa yekun vuran YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov irəli sürülmüş namizədlərin göstərilən etimadı doğruldacağına əminliyini ifadə edərək onlara uğurlar arzulayıb.

# Dil xalqın varlığının təminatçısıdır

## Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edildi

***Hər bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşı olan dili kimliyini təsdiq edir. Bizim ana dilimiz vüqarımızdır, tariximiz, keçmişimiz, bu günümüz və gələcəyimizdir. Bu günə qədər tarixi reallıqlar deməyə əsas verir ki, çox ziddiyyətli yollar keçmiş Azərbaycan dili öz zənginliyini və saflığını qoruyub-saxlamışdır.***

Milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişafında ana dilimizin rolu böyükdür. Dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla eyni taleyi yaşayıb müasir dövrə gəlib çatan ən böyük mənəvi sərvətlərimizdəndir. Belə ki, Azərbaycan dili ərəb istilası dövründə iki əsr əsarət altında olmuş və bu baxımdan da, dilimizə ərəb-fars mənşəli sözlər daxil olmuşdur. Ərəb əlifbası dəyişdirildikdən sonra latın qrafikasına keçsək də, bu, uzun sürməyən bir proses olmuşdur. Belə ki, sovet imperiyasının Azərbaycanda hökmranlığı, sözsüz ki, öz təsirini göstərməyə bilməzdi. Rus şovinizminin təsiri nəticəsində, əlifbamızın dəyişməsi, kiril əlifbasına keçid, ana dilimizin zəifləməsinə gətirib çıxardı, saflığına və təmizliyinə mənəvi təsir göstərdi. Belə ki, ərəb-fars mənşəli sözlərlə zəngin olan ana dilimiz rus mənşəli sözlərlə bir qədər zəifləməyə başladı. Onu da, qeyd edək ki, bu proseslər dilimizə nə qədər təsir etsə də, digər tərəfdən, Azərbaycan ziyalılarının dilin saflığı və təmizliyi uğrunda mübarizəsi, ana dilimizin qorunmasına yönəldilmişdir. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində dil uğrunda mübarizə daha da sürətləndi. Dilin təmizliyi istiqamətində çox ciddi addımlar atılmağa başlandı. Tədqiqat işlərinin nəticəsi olaraq, dilçi alimlərin yaratdığı əsərlər Azərbaycan dilinin leksikologiyasına, qramatikasının və onun semantik xüsusiyyətlərinin öyrənilməsinə yönəldilmişdir. Müxtəlif lüğətlərin yaranması, ana dilini öyrənən əsərlərin meydana çıxması dilçi alimlərin və ziyalıların gərgin əməyi nəticəsində ortaya qoyuldu.

### "AZƏRBAYCAN SSR-İN DÖVLƏT DİLİ AZƏRBAYCAN DİLİDİR"

Dillimizin keçdiyi çətin dövrlərdən biri də SSRİ dövrü idi. Hələ sovet dövründə ana dilimizin qorunması və inkişaf etdirilməsi, Azərbaycan dilinin dövlət dili statusunun təmin edilməsi ilə bağlı Ümummilli Lider Heydər Əliyev tarixi faktlar gerçəkləşdirmişdi. Məhz Ulu Öndərin qayğı və diqqəti nəticəsində o dövrdə Azərbaycan dili ölkəmizdə dövlət dili kimi rəsmiləşmişdi. Əlbəttə ki, hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən, onu tanıdan ana dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amildir. Ana dili dövlət rəmzlərimiz olan bayraq, gerb, himn kimi müqəddəsdir. Hələ ötən əsrin 70-ci illərində dövlət dilinin qorunması uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider Heydər Əliyev bütün ziyalıları, vətəndşlarımızı səfərbər edərək, ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb etmişdir. 1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir", - deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi. 1978-ci ildə SSRİ rəhbərliyi milli dəyərlərə, dilə birmənalı yanaşdığı halda, Ümummilli Liderin qətiyyəti və məntiqi nəticəsində, Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edildi. Bu, dilimizə qarşı olan tələbkarlıq idi. Onu da bildirək ki, həmin illərdə Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb.

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir. " Ulu Öndər Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir.

### ANA DİLİMİZƏ QARŞI HAQSIZLIQ ARADAN QALDIRILDI

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu və cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə, müvafiq qanun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı sərəncamlar əsasında Azərbaycan dilinin təkmilləşməsinə, onun inkişafına yol açıldı. Daha sonra Ulu Öndər Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Sərəncamı da milli-mənəvi dəyərlərin qorunub-saxlanması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin əsasını təşkil edən amillərdəndir. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub.

### "ƏDƏBİ DİLİN TƏRƏQQİSİ OLMADAN MƏNƏVİ MƏDƏNİYYƏTİN TƏRƏQQİSİ MÜMKÜN DEYİLDİR"

Bu sahəyə aid digər sərəncamlar ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.




Hər bir sahədə çalışan insan dilin qaydaqanunlarına əməl etməyə vətəndaş olaraq borcludur. Azərbaycan milli mətbuatında dil məsələsi aktual olan mövzulardandır. Dilin qorunması, işlənməsi, yad ünsürlərdən mühafizəsi, danışıq dilində sözlərin tələffüzü və digər məsələlər vacib hesab olunur. Söz fikrin gerçəkliyinin ifadəçisidir. Mətbuatda informasiya dil və söz vasitəsilə çatdırılır. Jurnalist peşəkarlığının əsas elementlərindən biri dildən istifadə ilə bağlıdır. Fikrin aydın və lakonik şəkildə çatdırılması, yeri gələndə, nitqdə hiss-həyəcan və emosiyanın duyulması, bəzən kəskinliyin, sərtliyin görüməsi - bütün bunlar jurnalist üçün vacib hesab edilən amillərdir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. ...Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimaisiyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır".

Dil hər bir millətin varlığını ifadə edən, maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən vasitədir. Dil ünsiyyət vasitəsidir. Dil milli şüurun və milli kimliyimizin formalaşmasında mühüm amillərdən biridir. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Xalqımızın ən zəngin milli-mədəni irsi onun adət-ənənələri, mədəniyyəti, tarixi və dilidir. Bu əsasda formalaşdırılan milli-mənəvi dəyərlər sistemi zaman-zaman qorunub-saxlanılmış və bu günümüzə qədər gəlib çatmışdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan və Latviya arasında münasibətlər çox möhkəm çərçivəyə əsaslanır

Son illər Azərbaycan ilə Avropa ölkələri arasında münasibətlər yalnız siyasi dialoq müstəvisində deyil, həm də iqtisadi əməkdaşlıq sahəsində sürətlə inkişaf edir. 22 aprel 2026-cı il tarixində Azərbaycanda səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçsin Azərbaycana rəsmi səfəri də iki ölkə arasında münasibətlərin yeni mərhələyə keçdiyini göstərən mühüm siyasi hadisə kimi qiymətləndirilir.

Görüş çərçivəsində iki ölkə başçıları arasında təkbətək və geniş tərkibdə görüşlər keçirilib, iki ölkə rəhbərləri tərəfindən "Azərbaycan Respublikası



Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatı" qəbul edilib və Azərbaycan və Latviya araında bir sıra mühüm sənədlər mübadilə edilib. Bu baxımdan Latviya prezidentinin səfəri iqtisadi əlaqələrin genişləndirilməsi, yeni investisiya imkanlarının araşdırılması və qarşılıqlı ticarət dövriyyəsinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Eyni zamanda, səfərin iqtisadi tərəfləri də diqqət çəkir. Enerji, nəqliyyat-logistika və ticarət sahələrində əməkdaşlığın genişləndirilməsi gündəlikdə



**Fuad Hüseynzadə, Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri**

əsas mövzulardan biridir. Xüsusilə, Azərbaycanın Avropa enerji təhlükəsizliyində artan rolu Latviyanın da maraq dairəsindədir. Bununla yanaşı, humanitar və mədəni əlaqələrin inkişafı da müzakirə olunan istiqamətlər sırasındadır. Təhsil, turizm və mədəniyyət sahəsində qarşılıqlı layihələrin həyata keçirilməsi xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verə bilər. Səfər çərçivəsində xüsusilə logistika və nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri diqqət mərkəzində olub. Latviya limanlarının imkanları ilə Azərbaycanın tranzit potensialının uzlaşdırılması yeni iqtisadi sinerji yarada və regionlararası ticarətin həcmini artırmağa xidmət edə bilər.

Qarşılıqlı investisiya mühitinin yaxşılaşdırılması, biznes dairələri arasında əlaqələrin gücləndirilməsi və birgə müəssisələrin yaradılması istiqamətində atılacaq addımlar iqtisadi əməkdaşlığın daha da dərinləşməsinə səbəb olacaq. Latviya şirkətlərinin Azərbaycanın sənaye parklarında və azad iqtisadi zonalarında fəaliyyəti üçün geniş imkanlar mövcuddur. Eyni zamanda, Azərbaycan sərmayədarları üçün də Latviyada müxtəlif sahələrdə investisiya yatırımı baxımından əlverişli şərait mövcuddur.

Rəqəmsal iqtisadiyyat və innovasiya sahəsində əməkdaşlıq da xüsusi önəm kəsb edir. Avropa ölkələrinin qabaqcıl təcrübəsinin Azərbaycanda tətbiqi, startap ekosisteminin inkişafı və yüksək texnologiyalar sahəsində birgə layihələrin həyata keçirilməsi iqtisadi artıma əlavə təkan verə bilər. Bu, həm də yeni iş yerlərinin yaradılması və insan kapitalının inkişafı baxımından əhəmiyyətlidir.

Kənd təsərrüfatı, turizm və xidmət sektorlarında da əməkdaşlıq üçün geniş perspektivlər mövcuddur. Azərbaycanın aqrar sektorunun modernləşdirilməsi, məhsulların Avropa bazarlarına çıxış imkanlarının artırılması və turizm sahəsində qarşılıqlı turist axınının təşviqi iqtisadi münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir. Bir sözlə qeyd etmək istəyirəm ki, Latviya Prezidentinin ölkəmizə səfəri strateji dostluq əlaqələrinin sarsılmazlığını daha da möhkəmləndirib. Hazırda iki ölkə arasında siyasi dialoq ali və yüksək səviyyədə mütəmadi qarşılıqlı səfərlər vasitəsilə davam etdirilir və Latviya Prezidenti Edqars Rinkeviçsin Azərbaycana səfəri ölkələrimiz arasında münasibətlərin daha da inkişafında yeni mərhələ açacaq.

# Repetitorluğa ehtiyac niyə artır?

***Son illər Azərbaycanda təhsil sahəsində aparılan islahatlar repetitorluq mövzusunu yenidən gündəmə gətirib. Mütəxəssislər hesab edir ki, ölkədə "məktəb + repetitor" modeli tədricən sıradan çıxaraq, daha çox məktəb əsaslı təhsil sistemi formalaşa bilər. Yeni yaradılan məktəb-lisey modellərinin əsas məqsədi şagirdlərin əlavə hazırlığa ehtiyac duymadan keyfiyyətli bilik əldə etməsidir. Bəs bu dəyişikliklər repetitorluğun həqiqətən aradan qalxmasına gətirib çıxara bilərmi? Repetitorluğa ehtiyacın bu qədər artmasının əsas səbəbləri nələrdir?***



## EKSPERT AÇIQLADI

Məsələ ilə bağlı təhsil eksperti Məzahir Məmmədli SİA-ya açıqlamasında bildirib ki, repetitorluq təəssüflər olsun ki, hazırda Azərbaycanda demək olar ən iyrənc formada yayılıb: "Dünyanın heç bir ölkəsində bu qədər repetitorluq geniş yayılmayıb. Əgər baxsaq, bir çox ölkələrdə repetitorluq yalnız o halda olur ki, şagirdin müəyyən fənn üzrə yaxşı bazası var və həmin bilik və bacarıqlarını daha da inkişaf etdirmək istəyir. Bizdə isə erkən yaşdan, ibtidai təhsil pilləsindən tutmuş yuxarı siniflərə qədər demək olar ki, hər kəs uşağını repetitor yanına göndərir. Bu, nə bir bəhsdir, nə də düzgün bir yanaşma – bu artıq bir probleme çevrilib. Valideynlər istər-istəməz uşaqlarını repetitor yanına yönləndirirlər. Bu isə doğru deyil və narahatedici vəziyyətdir.

Əgər hər kəs uşağını erkən yaşdan 11-ci sinfə qədər repetitor yanına göndərirsə, o zaman məktəblər nə üçün fəaliyyət göstərir? Təhsili yenidən məktəbə qaytarmalıyıq. Təhsil məktəbdə verilməlidir. Ali məktəblərə qəbul imtahanlarının formatı mütləq dəyişdirilməlidir. Fənlərin sayı azaldılmalı, 6-7 fənn əvəzinə 3 fənn üzrə imtahan verilməsi kifayət etməlidir. Qəbul prosesi ümumilikdə sadələşdirilməlidir. İmtahanlar çətinləşdirildikcə problemlər də artır: repetitor asılılığı, valideynlərin maliyyə yükü, abituriyentlərin psixoloji gərginliyi, stress və həyəcan. Hətta bəzi hallarda şagirdlərin psixoloji vəziyyətində ciddi problemlər müşahidə olunur. Bu, həqiqətən narahatedici haldır.

Yeni tətbiq olunan modellərə gəldikdə, nazirlik tərəfindən müəyyən təkmilləşdirmələr həyata keçirilir. Yuxarı siniflərdə şagirdlərin ixtisas qruplarına görə bölünməsi və onların ali məktəbə hazırlıq istiqamətində tədris alması nəzərdə tutulur. Hələlik bu sistem tam effekt verməsə də, müəyyən addımlar atılır. Ən ciddi problemlərdən biri isə ibtidai siniflərdə repetitor ehtiyacının yaranmasıdır. Bu, tamamilə qəbuledilməzdir. İbtidai sinif şagirdlərinin böyük əksəriyyəti ev tapşırıqlarını yerinə yetirmək üçün repetitor yanına gedir. Bu isə ziddiyyətli və ağrılı bir vəziyyətdir.

İbtidai sinif şagirdi niyə repetitora ehtiyac duymalıdır? Məncə, ev tapşırıqları ləğv olunmalıdır. Ev tapşırıqları aradan qaldırılsa, repetitor ehtiyacı da minimuma enər. Valideynlər vaxt ayıra bilmədikləri üçün uşaqları repetitor yanına göndərirlər. Bu səbəbdən Təhsil Nazirliyi ev tapşırıqları ilə bağlı ciddi qərar verməlidir. Ümumilikdə repetitor asılılığını azaltmaq üçün həm qəbul modeli dəyişməli, həm fənlərin sayı azaldılmalı, həm də ibtidai təhsildə ev tapşırıqları ləğv olunmalıdır. Yalnız bu halda repetitorluğun qarşısını müəyyən qədər almaq mümkündür. Əks halda bu problem getdikcə daha da artacaq və nəticədə həm valideynlər, həm də təhsil sistemi daha böyük çətinliklərlə üzləşəcək".

***Arzu Qurbanlı***



Elçin Bayramlı

# Oxumayın!

*Bir insanın dəyəri onun oxuduğu kitablarla ölçülür- Herbert Spencer*

***İnsanın bilikli, əxlaqlı, agıllı şəkildə formalaşması üçün ən əsas vasitələrdən biri mütaliədir. Texnologiyanın sürətli inkişafı son vaxtlar bu sahədə ciddi problemlər yaradıb. İndi insanlar televizora, internetə, telefona vaxt ayırırlar, kitab oxumağa isə yox. Yüzlərlə kitabxana məhv edildi, evlərdən kitab rəfləri yoxa çıxdı, artıq nadir hallarda kiminsə kitab oxuduğunu görmək olur. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Onlara keçməmişdən əvvəl mövzuya qısa bir giriş verək.***

Əvvəllər ədəbiyyatın böyük missiyası var idi. Kitab elm, dünyagörüş, bilik verməklə yanaşı, insanlıq, xeyirxahlıq, namusluluq, vətənpərvərlik, fədakarlıq, səmimilik, doğruluq, zəhmətkeşlik, vicdanlılıq kimi müsbət əxlaqi dəyərləri təbliğ edir, bu keyfiyyətlərə sahib müsbət qəhrəmanları örnək göstərirdi.

Mənfi qəhrəmanlar isə elə ustalıqla ifşa və rüsvay olunurdu ki, heç kim ondan nümunə götürməyi ağlına belə gətirə bilməzdi. Yazıçılar ədəbi tryukIarla cəmiyyətə insani dəyərləri təbliğ edirdilər.

İndi bəzən hansısa "postmodernist yazıçı" çıxıb ortalığa deyir ki, bəs ədəbiyyatın belə missiyası və öhdəliyi yoxdur. Ədəbiyyat bir kommersiya fəaliyyətiymiş və bazara hesablanmalıymış.

Ona görə də, ucuz bulvar romanları, porno səhnələrin təsvir edildiyi, əcaib, hətta iyrənc motivlərin uydurulduğu cızma-qaralar cəlbedici adlar qoyulmaqla ədəbiyyat adına oxuculara sırınmalıymış ki, bəzi dələduzlar pul və şöhrət qazansınlar.

Bunlara kim deyib ki, oxucuların səviyyəsi bu qədər aşağıdır və belə "əsərlərə" tələbat var? Axı, əvvəla bizim ölkənin kitab bazarının həcmi, hansı kitabın nə qədər tirajla buraxıldığı və satıldığı haqda hərdən elan olunan təxmini rəqəmlər belə şübhəlidir və şəffaf deyil.

İkincisi, bu postmodernist yazıçılar niyə oxucunu öz səviyyələrinə salmalıdır ki, bəlkə özləri oxucunun səviyyəsinə yüksələlər? Bunu edə bilmirlər deyə, oxucunu öz səviyyələrinə çəkirlər.

Üçüncüsü, kim və necə müəyyən edir ki, hansı yazıçılar, hansı mövzular, hansı əsərlər cəmiyyətin istəyini təmin edir? Oxucu bir kitaba pul verirsə, ondan fayda əldə etməlidir- dünyagörüşü artmalı, yeni məlumatlar əldə etməli, düşüncəsi və psixologiyasına müsbət ruh verməlidir. Televiziyaların insanı xəbər, serial, şou bombardmanına tutduğu, informasiya əsrinin ən böyük vaxt oğrusu internetin geniş yayıldığı bir vaxtda ortaya daha bir problem çıxır- nə oxuyaq ki, itirdiyimiz qiymətli vaxta dəysin.

İndi kitab bazarındakı əksər yeni əsərlərə baxanda adam düşünür ki, belə kitabları oxumamaq yaxşıdır. Müasir ədəbiyyat olduqca ruhsuz, duyğusuz, mənəvi boşluqla maddi həzzlərin paralel müşahidə olunduğu kağız yığnağıdır. Birmənalı olaraq postmodernist ədəbiyyat cəmiyyətə müsbət dəyərlər təbliğ etmir, insanlara ancaq azad cinsi münasibətləri, içki və siqaret kimi zərərli vərdişləri, tüfeyliliyi, eqoizmi, cinayətkarlığı, zorakılığı, ağlagəlməz murdarlıqları təbliğ edir.

Elə bir dövrə gəlmişik ki, artıq kitab oxumaq əksər hallarda insana və cəmiyyətə zərər vurur. Təhlükəli "dini" ədəbiyyat, intim ədəbiyyat, kriminal aləmi öyən və caniləri nümunə göstərən zərərli kitablar əksəriyyət təşkil edir. Deməli, çox oxumaqdan yox, nə oxumaqdan söhbət getməlidir.

Ona görə də, əgər müasir ədəbiyyatı oxuyacaqsınızsa, yaxşısı budur oxumayın! Müasir ədəbiyyatın əxlaqı yoxdur! Psixologiyanızı, əsəblərinizi, əxlaqınızı qoruyun! Oxumayın!

Bəs nə oxuyaq? XX əsrdə çap edilmiş dəyərli kitabların sayı-hesabı yoxdur. Onları bukinist mağazalardan ucuz qiymətə və kitabxanalardan pulsuz əldə edə bilərsiniz. Üstəlik, əksər əsərlərin elektron versiyaları internetdə var. Birdəfəlik başa düşmək lazımdır- tək-tük istisnaları nəzərə almasaq, ədəbiyyat XX əsrdə bitmişdir!

Ümumdünya Kitab Gününüz mübarək!

# Dünən dünyada kitab oxunurdu: bəs bu gün?

***İnternet həyatımıza daxil olmazdan əvvəl dünyadakı çoxsayı insanlar kimi biz kitab oxuyurduq. Sanki birdən-birə o kitabları əlimizdən alıb çırıqlayıb vərəq-vərəq edib ətrafımıza səpələdilər. Əlimizdən alınan kitabların yerinə hər birimizə bir telefon verib internetli, sosial şəbəkəli etdilər bizi. Sanki bu, belə olmalı imiş. Belə də oldu. Qısa zaman kəsiyində o aludəçiliyimiz bu aludəçiliklə əvəz olundu. Biz vərəqlərində göz yaşımız, səhifələri arasında çiçəklərimiz, səhifələrində gələcəyə qurduğumuz xəyallarımız qalan kitabları elə büküb bir küncə atdıq ki, bir də ona yaxın düşüb içində itirdiklərimizi axtarmağa belə cəhd etmədik. Lakin yaxın gələcəkdə bu səhvimizin acısını yaşayacağıq, bu, sözsüzdür. O kitablarda itirdiklərimizi axtaracağıq. Lakin təəssüf ki, nə o kitabları, nə də içində itirdiklərimizi bir daha tapmayacağıq...***

### Oxumaq vərdişi qazanmışdıq, təəssüf, itirdik

Hər hansı müsbət vərdişi qazanmaq illər hesabına əldə olunur. Bu, heç də asan məsələ deyil. Elə kitab oxumaq vərdişinə də illərlə nail olmuşduq. Bu, hər birimizin qaçılmaz vərdişinə çevrilmişdi. Daha sonra bu vərdişin itirilməsi isə sanki ən dəyərli bir əşyamızı itirdik, desəm, az olar. Bunu ən vacib bir orqanımızın, məsələn, beynimizin, ürəyimizin itirilməsi kimi dəyərləndirmək olar. Çünki biz beyinsiz, ürəksiz necə yaşaya biləriksə, kitab oxumadan da o cür yaşamış oluruq. Bu müqayisəni boş yerə gətirmədim. Yəni kitab oxumağın bədənimizdəki aparıcı bir orqan kimi düşünülməsinin daha doğru olduğu üçün ondan bəhs etdim.

İndi kitab oxumuruq, fərqinə varsaq, gündən-günə sanki beyinsizləşirik, ürəksizləşirik. Beynimiz hər gün saatlarla sosial şəbəkələrdə oxşar videolara "baxmaqla" kütləşir. Dəyərsiz videoları dəfələrlə izləməkdən artıq ürək kimi həyati dəyərli orqanımızı da itirməkdəyik. Çünki bir hadisəni o qədər görürük ki, o, bizim üçün adiləşir. Hər hansı bir halın adiləşməsindən dəhşətli isə heç nə yoxdur. Sanki gənclər ta nə əvvəlki kimi sevir, nə də əvvəlki kimi nifrət edir. Bütün hadisələrə sanki əvvəlki həssaslıqla yanaşmırıq. Uzun sözün qısası, həyatımızda adiləşmə adlı bir proses gedir. Bu prosesin sonunda nə ilə qarşılaşacağımızın isə indidən qığılcımları görünməkdədir.

### Azərbaycan kitab oxumaqda çox geridə qalır...



Təbii ki, kitab oxumaq vərdişləri tək Azərbaycanda deyil, bütün dünyada əvvəlki kimi deyil. Lakin dəhşətli hal ondan ibarətdir ki, biz dünyada bu sahədə ən geridə qalmış ölkəyik. Bu barədə araşdırma apararkən belə bir məlumatla qarşılaşdım ki, Böyük Britaniyada yerləşən "NOP World Culture Score Index"in tərtib etdiyi məlumatlara görə, dünyada ən çox kitab oxunan ölkə Hindistan, Tayland və Çindir. Dünyanın ən çox kitaba sahib ölkəsi olaraq siyahının başında olan Hindistanda hər bir insan həftədə orta hesabla 10 saat 42 dəqiqə kitab oxuyur. İkinci yerdə olan Taylandda adambaşına həftədə orta kitab oxuma vaxtı 9 saat 24 dəqiqə olduğu halda, üçüncü yerdə olan Çində insanlar buna həftədə 8 saat ayırır.

Siyahıda ən çox kitab oxunan digər ölkələr Filippin (7 saat 36 dəqiqə), Misir (7 saat 30 dəqiqə), Çexiya (7 saat 24 dəqiqə), İsveç (7 saat 6 dəqiqə), Fransa (6 saat 54 dəqiqə) olub, Macarıstan (6 saat 48 dəqiqə) və Səudiyyə Ərəbistanı (6 saat 48 dəqiqə) yer alıb. Türkiyə həftədə ortalama 5 saat 54 dəqiqə oxuma vaxtı ilə siyahıda 18-ci yerdədir.

Azərbaycan bu reytinqə ümumiyyətlə, yaxın düşə bilmir. Demoqrafik qruplar üzrə baxsaq, evlilərin 45.6%-i və subayların isə 72.9%-i adətən kitab oxuyur. İşləməyib, ancaq iş axtarışında olanların 61.6%-i, işləyənlərin isə 55%-i adətən kitab oxuduğunu bildirib. Yaş, təhsil və aylıq gəlir səviyyəsi artdıqca müntəzəm kitab mütaliə edənlərin sayı azalır. Məsələn, 18-25 və 26-35 yaş qruplarında müntəzəm kitab oxuyanların çəkisi müvafiq olaraq 76.5% və 52.3% təşkil edibsə, 36-65 yaş arasında olanların isə yarıdan az hissəsi kitab oxuyur. Sorğudan da göründüyü kimi, ölkəmiz kitab oxumaqda çox geridə qalır.

### Kitab oxumaq həm istirahət, həm də öyrənməkdir

Kitab oxumaq hər zaman mənalı istirahəti təşkil edib. Həm də kitab həmişə əla müəllim olub. Bu gün kompüter, smartfonlar qarşısında gözləri kor olan gənclərin əvvəlki nümayəndələri bu təhlükədən uzaqda kitab oxumaqla gözəl istirahət edir, həm də dünyanın hər yerindən məlumat alırdılar. Bütün bunları söyləməkdə məqsəd sosial şəbəkələri gözdən salmaq deyil. Bu şəbəkələr əslində çox faydalıdır, lakin səmərəli şəkildə istifadə olunarsa. Lakin biz onlardan faydalı şəkildə istifadə edirikmi? Əsla. Biz demək olar ki, bütün günümüzü tamamilə sosial şəbəkələrə həsr edirik. Günboyu bir insan, xüsusilə uşaq, yeniyetmə, gənc saatlarla bir sosial şəbəkədə olursa, onun həm fiziki, həm də mənəvi sağlamlığı təhlükə qarşısındadır.

Elə bu səbəbdən də yuxarıda qeyd olunan sorğuda belə bir məlumatın da yer alması maraq doğurur: texnologiyanın inkişafına baxmayaraq, mütləq əksəriyyət (81.3%) kitabları əsasən hələ də çap formasında oxuyur. 18-25 və 26-35 yaş qruplarında kitabları əsasən elektron formada oxuyanlar 21%-dən yuxarı olduğu halda, bu göstərici orta yaş qruplarında 5-10% aşağı, 65 yaşdan yuxarı isə 0% təşkil edib. Sorğuda iştirak edən oxucuların yarısından çoxu (54.3%) kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuduğunu deyib. Yaş cəhətdən bu cavabı seçən qruplar arasında gənc və orta yaşlılarla yuxarı yaşlılar arasında ciddi fərq müşahidə edilib. Belə ki, kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuyanların 26%-i 18-25, 25%-i 26-35 və 23%-i 36-45 yaş aralıqlarındadır, bu da digər yaş qruplarından 2-3 dəfə daha yüksəkdir. Oxucuların təxminən üçdə biri kitablara şəxsi inkişaf üçün müraciət edir. Maraqlıdır ki, hər 4 nəfərdən biri (27%) üçün kitab oxumaq istirahət sayılır.

### Vaxt yoxdur, kitab bahadır

Bəli, bu gün istənilən sorğu zamanı kitab oxumamaq üçün gətirilən bəhanələr sırasında "vaxt yoxdur, kitab bahadır" ifadələri ilə daha çox qarşılaşmaq olur. Lakin, gəlin, görək vaxt nə üçün yoxdur? Təbii ki, ona görə yoxdur ki, Tiktok, İnstagram, Facebook kimi sosial şəbəkələr insanları saatlarla özünə bağlayır. Xüsusən gənclər sosial şəbəkələrə elə aludə olublar ki, təbii ki, onların kitab oxumağa vaxtları qalmayacaq.

Digər məsələ, kitab bahadır, deyirik. Bəli, bu gün ölkəmizdəki kitab satışı mağazalarında kitabların qiyməti heç də hər kəsin büdcəsinə uyğun deyil. Lakin ölkəmizdə bu gün 32 milyon kitabxana fondu olan 2922 kütləvi kitabxana fəaliyyət göstərir ki, satışda olan kitabların əksəriyyətini oradan alıb oxuyub qaytara bilərik. Elə bu səbəbdən də kitabların bahalı olması ilə bağlı bəhanə heç də tutarlı deyil.

Lakin kitabxanalarda tapa bilmədiyimiz kitablar da var ki, onları satış mağazalarından ala bilirik. Bu səbəbdən də kitabların qiymətinin nəzarətdə saxlanması vacibdir. Hazırda tələbə-gənclər əsasən yeni tərcümə edilmiş kitabları satın alırlar ki, bu da onların büdcəsinə müvafiq deyil.

Yuxarıda adıçəkilən sorğuda qeyd olunduğu kimi, kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuyanların demək olar ki, yarısının aylıq gəlir səviyyəsi 500 manatdan yüksək, 55%-i ali təhsilli və 54%-i hazırda işləyənlərdir. Kitab oxumayan 536 respondentin xüsusiyyətlərinə nəzər yetirsək, yaş cəhətdən onların arasında 26-45 yaşda olanlar (49%) üstünlük təşkil edir. Kitab oxumayanlar arasında aylıq gəlir səviyyəsi 0-250 manat olanlar təxminən 50%, orta təhsillilər isə 64% çəkiyə malikdir. Son bir ildə kitab almağa sərf edilən vəsaitə gəlincə isə, nisbətən daha çox respondent (13.3%) 21-50 manat aralığında vəsait sərf edib. 18-25 yaş qrupunda bu miqdarda vəsait sərf edənlər daha çoxdur. 51-100 manat aralığında vəsait sərf edənlərin çəkisi isə cəmi 2% azdır. Bu mənada yaş qrupu cəhətdən 36-45 yaşdakı respondentlər üstünlük təşkil edir. Aylıq gəlir səviyyəsi 500 manatdan yüksək olanlar bütün xərc qruplarında üstünlük təşkil edirlər – yəni kitaba daha çox pul xərcləyirlər. Oxşar hal təhsil səviyyəsi üçün də keçərlidir – ali təhsillilər kitaba daha çox vəsait sərf edirlər.

### Peşəkar jurnalist Güngör Uras haqlıdır

Peşəkar jurnalist Güngör Urasın "Milliyət"dəki köşə yazılarından birində Türkiyədə kitab oxunması ilə bağlı haqlı gileyini xatırlayıram. Həmkarımız yazır: kitab oxumaq türklərin ehtiyacları siyahısında 235-ci yerdədir. Oxumaq uşaqların hava, su, yemək kimi gündəlik həyatının bir hissəsi olmalıdır ki, onlar mədəni inkişafını başa çatdırsınlar və informasiya əsrinə yetişsinlər.

Türk uşaqları kitab oxumaqda Afrika ölkələrindən geri qalır.Türkiyədə hər 100 nəfərdən yalnız 4-ü kitab oxuyur. Dünyada adambaşına kitab xərcləri 1,3 dollar olduğu halda, Türkiyədə dörddə bir dollardır. Türkiyə uşaqlara kitab hədiyyə etmək reytinqində 180 ölkə arasında 140-cı yerdədir.

Adambaşına düşən kitabların sayı 60 ildə artmayıb, əhəmiyyətli dərəcədə azalıb. Tənqid və ünsiyyət imkanlarının misilsiz genişliyinə, ali təhsil səviyyəsinə, təhsilli əhalinin on dəfə çox olmasına, xarici aləmlə qarşılıqlı əlaqənin və universitetlərin sayının artmasına baxmayaraq, savadlılıq səviyyəsi iki dəfə aşağı düşüb.

Nə olub? Türklər oxumaq vərdişini qazanıb, sonra itiriblər? İlk ağıla gələn televiziyadır... Televiziya əslində savadlı olmayan, amma özünü var kimi göstərənlər üçün bir bəhanədir. Digər tərəfdən, televiziyanın oxuyan və informasiyanın əldə edilməsində və ötürülməsində fəallıq göstərən, aktivliyini və mütaliəsini artıran insanlara təsiri var. Bəli, həmkarımız dediklərində haqlıdır. Qonşu Türkiyədə də kitab oxumanın Azərbaycandan heç də fərqli olmayan səviyyəsi ürəkağrıdandır. Bəs nəticə necə olacaq? Bunu söyləməyin özü o qədər dəhşətlidir ki, adam qorxudan ağzına almaq istəmir. Belə isə nə edək ki, kitab oxuyaq? Bu sualı hər birimiz özümüzə verməklə, bir də dərindən düşünməklə qarşıdakı o dəhşətdən yaxa qurtarmış ola bilərik. Unutmayaq ki, getdikcə süniləşirik, beynimizi, ürəyimizi itiririk. Kitabların təmin etdiyi mənəvi ehtiyacımızı digər heç nədən almaq mümkün deyil. Bunu bir an da yadımızdan çıxarmayaq.

***Mətanət Məmmədova***

## Uşaqlar qatilə çevrilir - KİM GÜNAHKARDIR: valideyn, yoxsa internet?

"Son günlər məktəblərdə şagirdlərin açıq-aşkar qatil obrazında öz sinif yoldaşlarını və müəllimləri hədəf alan hərəkətləri cəmiyyəti şoka salıb. Lakin bu cür qatil düşüncəli uşaqları kim yetişdirir? – nəzarətsiz internet! Bəli, bu mövzu demək olar ki, cəmiyyətin bir nömrəli əsas problemidir. İnternet resurslarının, xüsusilə sosial şəbəkələrin nəzarətsiz poliqon kimi cəmiyyəti başına götürdüyü bir zamanda uşaq və yeniyetmələrin zərərli informasiyalardan qorunması vacibdən vacib məsələdir. Nəzərə alsaq ki, əksər valideynlər də bu məsələyə lazımı şəkildə diqqət göstərmirlər, o zaman gələcəyimizlə bağlı vahimə daha da böyüyür. Çünki tiktok və digər sosial şəbəkə seqmentlərində cinsi azlıqların, əxlaq pozğunu olan bir sıra "müğənnilərin" reklamı, habelə uşaqların psixologiyasına dəhşət zərbə vuran qorxulu oyunların nümayişi ölkə olaraq bizi dəhşətli fəlakətə sürükləyir".



Mətləb Salahov: "Sosial şəbəkələrdəki dərəbəylik cəmiyyətdə cinayətkar və psixoz insanların sayını artırır"

Bu barədə SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. M.Salahov qeyd edib ki, nəzarətsiz internet məkanında ilk hədəf uşaq və yeniyetmələr seçilir. Bu iyrənc və təhlükəli siyasət uşaqların psixologiyasına, gələcəkdə şəxsiyyət kimi şikəst formalaşmasına zəmin yaradır.

M.Salahov qeyd etdi ki, uşaqları internetdəki zərərli informasiyalardan qorumaq, ilk növbədə, valideynlərin məsuliyyətidir: "Lakin min dəfə təəssüflər olsun ki, bir sıra valideynlər uşaqlarını əyləndirmək, sakitləşdirmək, ya da özlərinə vaxt ayırmaq üçün körpələri internetin ağuşuna atırlar. Uşaqların yaşına uyğun olmayan təhlükəli informasiya və reklamlarla tanışlıq onların hərəkət və fizioloji durumuna da mənfi təsir edir. Artıq iş o yerə çatıb ki, uşaqların internet aludəçiliyi psixoloji tramva halına çevrilib. Artıq bir neçə ildir ki, uşaq və yeniyetmələrin manyak şəkildə qatilə, zərərli manyaka çevrilməsi sürətli hal alıb. Dövlət olaraq, cəmiyyət olaraq bu təhlükəyə qarşı birgə tədbirlər görməsək, uzağı dörd-beş il ərzində bizi çox təhlükəli situasiya gözləyir. Çünki gələcək nəsil gələcək Azərbaycan deməkdir, unutmayaq".

***Afət Tahirqızı***

# Atəşkəs uzadılır - Yaxın Şərqə sülh gələcəkmi?

***Dünyanı cənginə alan müharibələr, münaqişələr fonunda ən dəhşətli qarşıdurmanın Rusiya-Ukrayna müharibəsi hesab olunur. Növbəti qanlı savaş isə Yaxın Şərqdə ABŞ, İsrail, fars-molla rejimi arasında baş verən müharibədir. Hərbi ekspertlər Yaxın Şərqdə baş verən müharibənin miqyasının genişlənə biləcəyi ehtimal edirlər. Səbəbi də onunla əlaqələndirilir ki, Tehran rejimi ABŞ və İsrail ilə qarşıdurmada məğlubiyyətə uğradığını anladığından region dövlətlərini hədəfə alır.***

Bu isə müharibənin sərhədləri aşa biləcəyindən xəbər verir. Birinci atəşkəs dövrünə qədər Tehranın hədəfə aldığı dövlətlər Türkiyə, Bəhreyn, İordaniya, İraq, Azərbaycan, Qətər, Kipr, Küveyt, Livan, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Səudiyyə Ərəbistanı, Suriya olub. Bununla yanaşı, dünyada enerji böhranı yaratmaq üçün Hörmüz boğazında təxribatlar həyata keçirir. Nəticə isə sivil dövlətlər və xalqlar üçün heç də arzuedilən deyil. Çünki tərəqqipərvər xalqlar sakit, təhlükəsiz yaşam tərzinə üstünlük verir və bunun uğrunda çalışırlar. Tehran tərəfi isə bu amilin qarşısını almağa və regionda gərginlik yaratmaqla ABŞ və İsrailə təsir etməyə çalışır. Ərəb ölkələri, eləcə də regionda sabitlik yaratmağa çalışan Pakistan, Türkiyə kimi müsəlman dövlətləri atəşkəsə nail olmaq üçün tərəflərlə intensiv danışıqlar aparırlar. Artıq ardıcıl şəkildə aparılan danışıqlar müsbət nəticəsini verib və ABŞ ilə Tehran arasında iki həftəlik atəşkəs əldə olunub. Atəşkəs vaxtı isə aprelin 22 -də başa çatmalı idi. Lakin bu dəfə də Türkiyə və Pakistanın intensiv fəaliyyəti nəticəsində yenidən qanlı müharibənin baş verməsinin qarşısı alındı. ABŞ prezidenti Donald Tramp mətbuata açıqlamasında bildirib ki, ABŞ ilə Tehran arasında atəşkəsin uzadılmasına qərar verilib. O, ABŞ və İran arasında iki həftəlik atəşkəsin Pakistanın tələbi ilə uzadıldığını açıqlayıb: "Bu qərar atəşkəsin bitməsindən bir neçə saat əvvəl qəbul edilib və Pakistan Ordu Qərargah rəisi Asim Munir və ölkənin Baş naziri Şahbaz Şərifin tələbi ilə verilib".

D.Tramp "Truth Social" sosial şəbəkəsindəki səhifəsində atəşkəsin Tehran tərəfinin rəsmi təklifinə və danışıqların başa çatmasına qədər davam edəcəyini yazıb.



### Müharibədən daha çox ziyanı region dövlətləri çəkir

Gözlənilən ondan ibarətdir ki, Tehran növbəti fürsəti dəyərləndirib, irəli sürülən şərtləri və tələbləri qəbul etməsə vəziyyəti son dərəcə ağır olacaq. Ən azı atəşkəs rejiminin tətbiq edilməsindən bir gün əvvəl Trampın "bir gecədə İran tamamilə məhv ediləcək" dediyi fikir reallaşa bilər. Düzdür, Tehran rejimi ağır durumda olsa belə, region dövlətlərinə zərər vurmaq fəaliyyətini davam etdirəcək. Bu isə müharibənin miqyasının regional çərçivəni aşaraq dünya müharibəsinə çevrilməsinə gətirib çıxara bilər. Türkiyənin xarici işlər naziri Hakan Fidan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının növbədənkənar sessiyasında çıxışı zamanı xəbərdarlıq edib ki, Yaxın Şərqdə müharibə genişlənə bilər və bu da regionda daha ciddi problem yaradacaq. Çinin xarici işlər nazirliyi də xəbərdarlıq edib ki, Hörmüz boğazı ətrafında ABŞ-ın yaratdığı blokada çərçivəsində Çin gəmiləri saxlanılarsa, bu, müharibə kimi qiymətləndiriləcək. Əslində, bu gedişat Tehran rejiminin maraqlarına cavab verir. Ona görə də, irəli sürülən şərtləri qəbul etməməklə vəziyyəti daha da gərginləşdirməyə çalışır. Bu isə molla rejiminin xalqın və dövlətin maraqlarını düşünmədiyini göstərir. Nəzərə almaq lazımdır ki, ABŞ və İsrailin zərbələri nəticəsində əksər şəhərlərdə hərbi bazalar tamamilə dağıdılıb. Hücum nəticəsində İranın ali dini lideri ayətullah Əli Xamenei öldürülüb. Ümumilikdə 145 hərbi və siyasi rəhbər sıradan çıxarılıb.

### ABŞ ordusu da ciddi itkilərə məruz qalır

Bu məqamda onu vurğulamaq lazımdır ki, müharibənin gedişində ABŞ tərəfi də böyük zərbələrə məruz qalıb. İddialara görə, ABŞ 30 milyarda yaxın texniki itkilərlə üzləşib. ABŞ-a məxsus F-35 və F-16 qırıcı təyyarələrinin Tehran səmasında vurulması barədə məlumatlar yayılıb. Əgər müharibənin davam edəcəyi təqdirdə Tehranın siyasi və hərbi rəhbərliyi, ümumilikdə rejim sıradan çıxacaqsa ABŞ və İsraildə böyük zərbələrə, itkilərə məruz qala bilər. Əsasən ABŞ-ın Yaxın Şərqdəki ordusu silah- sursat çatışmazlığı riski ilə üzləşəcək. Bu barədə CNN-in analitiki Pentaqonla əlaqələrdən verdiyi məlumatda qeyd olunur. CNN şərhçisi qeyd edir ki, "fevralın 28-də başlayan müharibənin müəyyən mərhələsində ABŞ-ın arsenalları xeyli tükənmişdi. Bunlar Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi tərəfindən yenidən təhlil edilir. Hesabatda deyilir ki, "Yüksək dəqiqlikli zərbə raketlərinin ehtiyatının ən azı 45%-ni boşa sərf edilib. Bu ehtiyatın ehtiyatlarını yeniləmək üçün ABŞ-a beşə qədər daş lazım ola bilər".

Şon Parnell bildirib ki, ABŞ hərbi qüvvələri getdikcə daha çox prezidentin seçdiyi saatda və yerdə bütün qaydaları təsdiqləməyə ehtiyac duya bilər: "Prezident Donald Tramp vəzifəyə başlayandan bəri, biz Amerika zirehli qüvvələrinə xalqımızı və maraqlarımızı qorumaq üçün geniş imkanlar arsenalı təqdim edən sayca uğurlu əməliyyatlar aparmışıq". Tərəflər arasında atəşkəsin uzadılması haqqında razılaşmanın əldə olunması Yaxın Şərqdə sülh yarada bilər. Ancaq Tehran rejiminin şərtləri qəbul etməkdən yayınması narahatlıq yaradır.

***İ.ƏLİYEV***

# Belçika və Niderland erməni lobbisinin təsirindədir

***Xəbər verdiyimiz kimi, aprelin 16-da Belçika Nümayəndələr Palatası deputat Mişel de Maqdanın "Qarabağ sakinlərinin beynəlxalq təhlükəsizlik zəmanətləri altında geri qayıtmaq hüququ, effektiv beynəlxalq monitorinq mexanizminin yaradılması, Azərbaycan Silahlı Qüvvələrinin 12 may 2021-ci il tarixli mövqelərinə çəkilməsi və Bakıda saxlanılan erməni əsirləri və mülki şəxslər məsələsinin həlli" mövzusunda qətnaməsini qəbul edib.***

Elə həmin gün Niderland Baş Ştatlarının Nümayəndələr Palatası deputat Don Söderin iki parlament təklifini qəbul edib: "Azərbaycandakı erməni hərbi əsirlərinin azad edilməsi haqqında" və "erməni soyqırımının tanınması haqqında".

Bu fonda Ermənistanın Baş naziri Nikol Paşinyanın "Vətəndaş Sazişi" seçki platformasını təqdim edən video müraciətində məhz bu mövzu ilə bağlı aydın açıqlamalar verməsi diqqətəlayiqdir. O bildirib ki, "Könüllü olaraq Qarabağı tərk edən ermənilərin geri qayıtması məsələsini gündəmdə saxlamaq məhsuldar deyil".

"Artıq kimin harada yaşadığını və kimin nəyə sahib olduğunu araşdırmayacağıq. Biz bu mövzunu bağlayırıq. Sülhə nail olmağın yeganə yolu budur",- deyə Ermənistan lideri vurğulayıb.

Təbii ki, Bakı da buna etinasız qalmayıb. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına görə, Belçika Krallığı və Niderland Krallığının səfirləri Julien de Frepon və Marian de Yonq ayrı-ayrılıqda Xarici İşlər Nazirliyinə çağırılıblar. Azərbaycan tərəfi Belçika və Niderland parlamentlərinin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, eləcə də Bakı ilə Yerevan arasında davam edən sülh prosesinə xələl gətirməyə yönəlmiş hərəkətlərinə qarşı kəskin etirazını bildirib. Azərbaycan XİN ölkənin suveren əraziləri ilə bağlı yalan iddiaları, Ermənistanın ərazi bütövlüyünü pozmaq ittihamlarını və erməni əsilli şəxslərin qanunsuz həbsləri ilə bağlı iddiaları qətiyyətlə rədd edib.




Nazirlik vurğulayıb ki, "Bu sənədlərin qəbulunun Azərbaycan və Ermənistan parlament sədrlərinin son görüşü ilə üst-üstə düşməsi paradoksaldır".

Daha sonra Azərbaycan parlamentinin bəyanatı yayılıb. Milli Məclis Belçika və Niderland parlamentlərindən Azərbaycana qarşı nifrət kampaniyasına və regionda sülhün möhkəmləndirilməsi səylərinə xələl gətirən addımlara son qoymağı tələb edib.

İrlandiyalı politoloq və tarixçi Patrik Uolş qeyd edir ki, rəsmi Yerevan sülh gündəliyində irəliləyiş üçün səy göstərsə də, Avropa ölkələri mövcud mövqelərini qoruyub saxlayırlar. Ekspert bildirir ki, "qəbul edilən qətnamələr, çox güman ki, erməni diasporunun lobbiçiliyinin nəticəsidir, çünki kiçik bir qrup radikal xristian fəalı istisna olmaqla, Avropa ictimaiyyəti Qarabağ hadisələrinə heç vaxt dərin maraq göstərməyib.

Bu vəziyyət, Ermənistanın özü faciəli keçmişinin üzərindən xətt çəkməyə və sülh razılaşmasına nail olmağa çalışarkən, erməni diasporunun Azərbaycana qarşı dağıdıcı siyasətini davam etdirdiyinin daha bir təsdiqidir".

Cənubi Qafqaz Politoloqlar Klubunun rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert İlqar Vəlizadə öz növbəsində bildirib ki, bu vəziyyətdə bir neçə amil rol oynayır: mövzunu bilməmək və onu dərindən araşdırmaq istəməmək, eləcə də onilliklərdir bu istiqamətdə çalışan lobbiçilik strukturlarının fəaliyyəti.

"Onlar əsasən öz maraqlarını irəli sürərək, münaqişədən istifadə ediblər ki, bu da onların dolanışıq mənbəyi və fəaliyyətlərinin əsaslandırılması olub. Bu, Brüsseldə geniş təmsil olunan strukturlaşdırılmış erməni diasporuna və onun lobbiçilik strukturlarına aiddir. Məhz orada Belçika parlamentinin üzvləri ilə məqsədyönlü iş aparılıb və bu gün nəticələrini görürük.

Oxşar fəaliyyət Hollandiyada və Fransada da müşahidə olunur. Bu, Azərbaycan-Avropa siyasi dialoqunun intensivləşməsi ilə üst-üstə düşüb. Hazırda Avropa İttifaqı ilə strateji tərəfdaşlıq haqqında sənəd müzakirə olunur. Aydındır ki, Brüsseldəki müəyyən dairələr üçün qarşılıqlı maraqları nəzərə alaraq münasibətləri yeni səviyyəyə qaldırmaq, eləcə də genişmiqyaslı enerji və nəqliyyat gündəliyinin həyata keçirilməsi arzuolunmaz görünür. Onlar hesab edirlər ki, bu, Azərbaycanın mövqeyini gücləndirəcək və münaqişənin səhifəsi tamamilə bağlanacaq, bu qrupları şübhəli fəaliyyətlərinin bəhrələrindən məhrum edəcək.

Son vaxtlar çoxsaylı oxşar qətnamələr qəbul edilib.

"Əgər deputatların edəcək başqa bir işi yoxdursa, onlar Yaxın Şərq, Latın Amerikası və ya Afrikadakı vəziyyətə diqqət yetirməlidirlər. Məsələn, Sudan humanitar fəlakətin ortasındadır, lakin bu mövzular onlar üçün maraqlı deyil - Aİ-də sadəcə müvafiq lobbi qrupları yoxdur. Onlar yalnız Cənubi Qafqaza diqqət yetirirlər və burada nizamlama prosesini pozmağa çalışırlar. Bu arada, Paşinyan özü sülh gündəliyindən və keçən il Vaşinqtonda imzalanmış sazişlərin həyata keçirilməsindən danışır.

Bu deputatlar real proseslərdən tamamilə xəbərsiz olduqlarını nümayiş etdirirlər. Onlar ən az müqavimət yolunu seçirlər: ABŞ-ı tənqid etməkdən çəkinirlər- məsələn, Vatikan və Vaşinqton arasındakı münasibətlərlə bağlı məsələlərdə- giriş məhdudiyyətləri də daxil olmaqla nəticələrdən qorxaraq. Azərbaycana gəldikdə isə, onlar cəzasızlıqla başqa bir qətnamə qəbul edə biləcəklərini düşünürlər.

Onların mövqeyi real çəkiyə malik deyil, lakin danışıqlar prosesinin beynəlxalq kontekstinə mənfi təsir göstərir. Bu, Azərbaycan XİN-in reaksiyasını izah edir. Ümumiyyətlə, həm Ermənistan, həm də Azərbaycan regionun taleyinin öz əlimizdə olduğunu və tərəflərin sülh gündəliyi üzrə irəliləməyə davam edəcəyini başa düşürlər", - deyə ekspert bildirib.

***Tərcümə - Elçin***

SON SƏHİFƏ

SƏS

24 aprel
2026-cı il

# WhatsApp yazışmalarını hansı hallarda izləmək olar? – ŞOK FAKTLAR



***WhatsApp dünyada ən çox istifadə olunan mesajlaşma tətbiqlərindən biridir və "uçdan-uça şifrələmə" sistemi ilə tanınır. Bu sistemə görə mesajlar göndərildiyi andan etibarən şifrələnir və yalnız göndərənlə qəbul edən cihazda açılır. Nəzəri olaraq bu o deməkdir ki, nə WhatsApp, nə də üçüncü tərəflər mesajın məzmununu birbaşa oxuya bilmir. Lakin real həyatda təhlükəsizlik yalnız şifrələmə ilə bitmir. Yazışmaların izlənilməsi adətən şifrələmənin qırılması ilə yox, cihazlara giriş, ehtiyat nüsxələr, istifadəçi səhvləri və hüquqi mexanizmlər vasitəsilə baş verir. SİA mövzu ilə bağlı araşdırma edib.***

### Ucdan-uca şifrələmə nəyi qoruyur və nəyi qorumur?

WhatsApp mesajları ötürülmə zamanı tam şifrələnir və bu, mesajın internet üzərindən "oxunmasını" demək olar ki, mümkünsüz edir. Yəni mesaj serverdən keçsə də, məzmun görünmür. Amma bu qoruma yalnız "yolda olan mesaj" üçündür. Mesaj telefonun özündə açıldıqdan sonra artıq texniki və ya fiziki giriş varsa, onu görmək mümkündür. Bu, çox vacib fərqdir: WhatsApp mesajı qoruyur, amma telefonun özünü yox.

### Telefonun ələ keçirilməsi və cihaz səviyyəsində giriş

Ən real izlənmə halları cihazın özünə girişlə bağlıdır. Əgər bir şəxs telefonunuza fiziki və ya uzaqdan giriş əldə edirsə, WhatsApp yazışmaları artıq qorunmur. Bu vəziyyətlərdə izləmə mümkündür:

Telefon kilidi zəif olduqda və ya ümumiyyətlə yoxdursa, tətbiqə birbaşa daxil olub bütün yazışmaları oxumaq olar. Eyni zamanda bildirişlərin kilid ekranında görünməsi də mesajların bir hissəsini açıq şəkildə göstərir. Burada problem WhatsApp-ın təhlükəsizliyi deyil, cihazın ümumi müdafiə səviyyəsidir.

### Bağlı cihazlar və WhatsApp Web vasitəsilə izləmə

WhatsApp eyni hesabı bir neçə cihazda işlətməyə imkan verir. Bu funksiya rahatlıq yaratsa da, düzgün nəzarət edilmədikdə ciddi risk yaradır. Əgər hesab WhatsApp Web və ya masaüstü versiyaya qoşulubsa, həmin cihazda bütün mesajlar real vaxtda görünə bilər. İstifadəçi bunu çox vaxt fərq etmir, çünki bu bağlantı gizli şəkildə aktiv qala bilir.

Bu tip izləmə halları adətən:
- ictimai kompüterlərdən çıxış etməmək
- yad cihazlarda hesabı açıq saxlamaq
- "bağlı cihazları" yoxlamamaq
- kimi sadə səhvlərdən yaranır.

### Casus proqramlar (spyware) ilə gizli izləmə

Ən təhlükəli ssenarilərdən biri zərərli proqramlardır. Bu proqramlar telefona gizli şəkildə daxil olaraq WhatsApp daxil olmaqla bütün fəaliyyətləri izləyə bilir. Bu halda şifrələmə artıq əhəmiyyətini itirir, çünki mesaj internetdə yox, birbaşa istifadəçinin cihazında oxunur. Belə proqramlar:
- yazılan mesajları ələ keçirə
- ekran görüntüsü çəkə
- klaviatura ilə yazılanları oxuya hətta kamera və mikrofona giriş əldə edə bilər

Bu tip hücumlar çox vaxt saxta linklər, qeyri-rəsmi tətbiqlər və ya aldadıcı mesajlar vasitəsilə həyata keçirilir.

### Ehtiyat nüsxələr (cloud backup) üzərindən giriş

WhatsApp yazışmalarının çoxu Google Drive və ya iCloud kimi bulud xidmətlərində saxlanılır. Əgər bu hesablar zəif qorunubsa, yazışmalar oradan əldə oluna bilər. Bu halda izləmə WhatsApp-ın özündən yox, bulud hesabının sındırılmasından sonra baş verir. Xüsusilə iki mərhələli təsdiq aktiv deyilsə və şifrə sadədirsə, risk daha da artır.

### SIM kart dəyişdirilməsi və hesabın ələ keçirilməsi

"SIM swap" adlanan üsulda hücumçu mobil operator vasitəsilə nömrəni özünə köçürür. Daha sonra WhatsApp aktivləşdirilir və hesab tam şəkildə ələ keçirilir.

Bu zaman:
- köhnə cihazdan hesab çıxır
- yeni cihazda bütün yazışmalar açılır
- istifadəçi öz hesabına giriş itirir

Bu üsul sosial mühəndislik və operator zəifliklərinin birləşməsindən yaranır.

### Hüquqi izləmə və rəsmi orqanların müdaxiləsi

Bəzi hallarda dövlət orqanları məhkəmə qərarı ilə WhatsApp məlumatlarına giriş tələb edə bilər. Burada əsasən mesajların məzmunu yox, ehtiyat nüsxələr, hesab məlumatları və əlaqə qeydləri araşdırılır. Ümumilikdə, uçdan-uça şifrələmə səbəbindən mesajları "canlı şəkildə oxumaq" çox məhdud hallarda mümkündür və adətən bu, birbaşa tətbiq səviyyəsində deyil, cihaz və ya ehtiyat sistemlər vasitəsilə olur.

### Meta məlumatlar və dolayı izləmə

Mesajların məzmunu oxunmasa da, bəzi məlumatlar görünə bilər. Məsələn: kim kimə yazır, nə vaxt yazır nə qədər tez-tez əlaqə saxlanılır. Bu məlumatlar "metadata" adlanır və rabitə nümunələrini ortaya çıxara bilir. Bu da göstərir ki, tam anonimlik və görünməzlik real həyatda çox çətindir.

WhatsApp yazışmalarının izlənilməsi adətən birbaşa şifrələmənin pozulması ilə yox, dolayı yollarla baş verir. Ən real risklər telefonun ələ keçirilməsi, bağlı cihazlar, casus proqramlar, bulud ehtiyat nüsxələri və insan səhvləridir. Yəni WhatsApp özü güclü qoruma təmin etsə də, təhlükəsizliyin əsas hissəsi istifadəçinin öz davranışından asılıdır. Düzgün qorunmayan cihaz və zəif təhlükəsizlik vərdişləri olduqda, yazışmalar tamamilə təhlükəsiz sayılmır.

*Günel Fərzəliyeva*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Toyuq zülalının faydalı xüsusiyyətə malik olduğu aşkar edilib...



***...Hidroliz edilmiş toyuq zülalı əlavəsi subyektiv yuxu keyfiyyətini və gündüz rifahını yaxşılaşdıra bilər.***

Bu, Taybey Tibb Universitetinin tədqiqatçılarının gəldiyi nəticədir.

SİA-nın əldə etdiyi məlumata görə, tədqiqat Frontiers in Nutrition jurnalında dərc edilib.

Randomizə edilmiş, ikiqat kor, plasebo ilə idarə olunan tədqiqatda yuxunun pis olması şikayəti olan 52 nəfər iştirak edib.

Dörd həftə ərzində bir qrup gündəlik 670 mq toyuq zülalı ekstraktı, digəri isə plasebo qəbul edib.

Hidroliz prosesi zamanı toyuq zülalı daha kiçik komponentlərə (peptidlər və amin turşuları) parçalanır.

Bu "bölünmüş" zülal bədən tərəfindən daha asan mənimsənilir və buna görə də idman əlavələri və heyvan yemlərinin istehsalında geniş istifadə olunur.

Pittsburq Yuxu Keyfiyyəti İndeksi (PSQI) həm ümumi yuxu keyfiyyətini, həm də onun fərdi xüsusiyyətlərini nəzərə alan yuxu parametrlərini qiymətləndirmək üçün istifadə edilmişdir. Təcrübə obyektiv yuxu keyfiyyətində qruplar arasında heç bir əhəmiyyətli fərq aşkar etməmişdir.

Lakin, əlavə qəbul edən iştirakçılar daha yüksək subyektiv yuxu keyfiyyəti bildiriblər - daha yaxşı yatdıqlarını bildirmə ehtimalı daha yüksək idi.

Bu qrup həmçinin enerji və performans da daxil olmaqla gündüz rifahında orta dərəcədə yaxşılaşma müşahidə etmişdir, baxmayaraq ki, bu təsir statistik əhəmiyyətə çatmamışdır. Müəlliflər əlavənin mümkün təsirini hidroliz olunmuş toyuq zülalında bioaktiv peptidlərin olması ilə əlaqələndirirlər ki, bu da yuxu zamanı sinir sisteminə və bədənin bərpa proseslərinə təsir göstərə bilər.

*Nazlı Almuradova*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**